# Bəşəri cinayət - Xocalı soyqırımı

*(əvvəli 26 və 27 fevral tarixli saylarımızda)*

Hüquqşünaslarımızın fikrincə, Azərbaycan hökuməti Xocalı faciəsini soyqırımı kimi dəyərləndirərkən 9 dekabr 1948-ci ildə BMT Baş Assambleyası tərəfindən 260 saylı qətnamə ilə qəbul edilən "Soyqırımı cinayətinin qarşısının alınması və ona görə cəza" haqqında Konvensiyanı, keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Cinayət Tribunalının IV maddəsini, Ruanda üzrə Beynəlxalq Tribunalın Nizamnaməsinin I maddəsini, həmçinin "Xocalı soyqırımı günü haqqında" Azərbaycan Respublikası Milli Məclisinin 24 fevral 1994-cü il tarixli qərarını və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103-cü maddəsini əldə əsas tutur. Bu məsələdə erməni silahlı birləşmələri tərəfindən Dağlıq Qarabağ və işğal olunmuş digər ərazilərdə törədilən cinayət əməllərinin 2000-ci ildə qüvvəyə minmiş Azərbaycan Respublikası CM-nin 16-cı fəslində nəzərdə tutulmuş sülh və insanlıq əleyhinə cinayətlərə aid olması, habelə Azərbaycan Respublikasında sülh və insanlıq əleyhinə cinayətlərə, soyqırımı və müharibə cinayətlərinə görə məsuliyyət nəzərdə tutan mövcud cinayət qanunvericiliyi normalarının tətbiqi, "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın və "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın müvafiq müddəalarına uyğunlaşdırmaq məqsədi ilə qəbul edilən Beynəlxalq cinayətlərə görə məsuliyyət müəyyən edən Qanunun qüvvəsinin geriyə şamil olunması haqqında Azərbaycan Respublikasının 12 may 2006-cı il tarixli Konstitusiya Qanunu əsas götürülmüşdür. Həmçinin sülh və insanlıq əleyhinə cinayətlər törətmiş şəxslərə cinayət məsuliyyətinə cəlb etmə müddətinin tətbiq edilməməsi barədə Azərbaycan Respublikası CM-nin 75.5-ci maddəsində təsbit olunmuş müddəaları, bundan başqa, Azərbaycan Respublikası Konstitusiyasının 151-ci maddəsinə əsasən Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ-hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələrin tətbiq edilməli olması nəzərə alınaraq, istintaq zamanı Azərbaycan Respublikasının 31 may 1996-cı il tarixli Qanun ilə tərəfdar çıxdığı 9 dekabr 1948-ci ildə BMT Baş Assambleyası tərəfindən 260 saylı qətnamə ilə qəbul edilən "Soyqırımı cinayətinin qarşısının alınması və ona görə cəza" haqqında Konvensiyası, BMT Baş Məclisinin 239 saylı 26 noyabr 1968-ci il tarixli qətnaməsi ilə qəbul edilmiş və 11 noyabr 1970-ci il tarixdə qüvvəyə minmiş "Müddətin hərbi cinayətlərə və bəşəriyyətə qarşı cinayətlərə tətbiq edilməməsi haqqında" Konvensiyasına istinad olunur. Bu sırada BMT Baş Məclisinin 39/46 saylı 10 dekabr 1984-cü il tarixli qətnaməsi ilə qəbul edilmiş "İşgəncələrə və digər qəddar, insanlıqdan kənar, yaxud ləyaqəti alçaldan davranış və cəza növləri əleyhinə" Konvensiyası, "Müharibə zamanı mülki əhalinin müdafiəsi haqqında" 12 avqust 1949-cu il tarixli Cenevrə Konvensiyası, Beynəlxalq Cinayət Məhkəməsinin Statutunun 6-cı maddəsi, Azərbaycan Respublikasının 25 dekabr 2001-ci il tarixdən qoşulduğu "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" 1950-ci il Konvensiyasının, "Hərbi əsirlər ilə rəftara dair 12 avqust 1949-cu il tarixli Cenevrə Konvensiyası"nın, Azərbaycan Respublikasının 22 iyul 1992-ci il tarixdə qoşulduğu BMT-nin Baş Assambleyasının "Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın" müddəaları əsas götürülmüşdür. Qeyd olunanlara əsasən Xocalıda törədilən əməl beynəlxalq hüquq normalarına müvafiq olaraq sülh və insanlıq əleyhinə cinayətlərə aiddir.

* * *

Müharibənin bəşəriyyətə vurduğu ziyan təkcə fiziki və maddi dəyərlərlə ölçülmür, həm də yüksək mənəvi dəyərlərlə vurulmuş ziyanla ölçülür ki, bu da daha dəhşətli və daha təhlükəlidir. Hərbi münaqişələr zamanı beynəlxalq prinsipləri diktə edən bir çox normalar mövcuddur ki, bu normalara ona qoşulmuş dövlətlər tərəfindən əməl edilməsi zəruridir. Münaqişə zonasında əsir və girov götürülmüş şəxslərin hüquqları 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyası tərəfindən qorunur. "Müharibə zamanı mülki əhalinin qorunması haqqında" Cenevrə Konvensiyasının 3-cü maddəsində deyilir: *"Döyüş əməliyyatlarında bilavasitə iştirak etməyən şəxslərlə, o cümlədən döyüş silahını yerə qoymuş silahlı qüvvələrin üzvləri ilə, habelə, xəstələnmə, yaralanma, tutulma və ya hər hansı digər səbəb üzündən sıradan çıxmış şəxslərlə onların irqinə, cinsinə, mənşəyinə, əmlak vəziyyətinə və ya digər oxşar meyarlara görə heç bir ayrı-seçkilik qoyulmadan, bütün hallarda insanpərvərliklə rəftar olunmalıdır. Bu məqsədlə qeyd olunan şəxslərə qarşı aşağıda sadalanan bütün hərəkətlər qadağan edilir və hər zaman, hər yerdə qadağan ediləcəkdir:*

*a) həyata və ya şəxsiyyətə qəsd etmək, o cümlədən hər hansı şəraitdə öldürmək, şikəst etmək, qəddarcasına rəftar etmək və ya işgəncə vermək;*

*b ) girovlar götürmək;*

*c) insan ləyaqətinə toxunmaq, o cümlədən təhqiramiz və ya alçaldıcı tərzdə rəftar etmək.*

Hərbi münaqişələr zamanı beynəlxalq prinsipləri diktə edən bir çox normalar mövcuddur ki, bu normalara ona qoşulmuş dövlətlər tərəfindən əməl edilməsi zəruridir. Konvensiyanın sözügedən maddəsi, həmçinin, yaralılar və xəstələrin döyüş zonasından toplanması, onlara qayğı göstərilməsini tələb edir. Lakin Ermənistan Respublikası Azərbaycan vətəndaşlarına qarşı münasibətdə Cenevrə konvensiyalarının bu və digər tələblərini kobud surətdə pozur, Azərbaycana qarşı hərbi təcavüz nəticəsində əsir və girov götürülmüş vətəndaşlarımızın hüquqlarını müntəzəm olaraq tapdalayır, heç bir beynəlxalq normaya sığmayan əməlləri ilə özünün cinayətkar və təcavüzkar xislətini açıq-aydın göstərir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Xocalı soyqırımının növbəti ildönümü ilə əlaqədar olaraq Azərbaycan xalqına müraciətində demişdir: *"... Xocalı faciəsi iki yüz ilə yaxın bir müddət ərzində erməni millətçilərinin və onların havadarlarının xalqımıza qarşı apardığı etnik təmizləmə və soyqırımı siyasətinin davamı və qanlı səhifəsi idi. Bu mənfur siyasət xalqımıza saysız-hesabsız müsibətlər və əzab-əziyyətlər gətirmişdir...*

*... Xocalı faciəsi öz qəddarlığına, kütləviliyinə və törədilən cinayətin ağırlığına görə bəşəriyyətə qarşı ağır cinayətlər sırasına daxil olmuşdur.*

*Xocalı soyqırımını törətməklə erməni millətçiləri məkrli məqsədlər güdürdü: xalqımızı qorxutmaq, vahimə yaratmaq, onun mübarizə əzmini qırmaq, torpaqların işğalı faktı ilə barışmağa məcbur etmək. Lakin hiyləgər və amansız düşmən məqsədinə çata bilmədi. Xocalı müdafiəçiləri qəddar düşmənlə mübarizədə əyilmədilər, qəhrəmanlıqla vuruşaraq Vətənə sədaqət nümunəsi göstərdilər...*

*1994-cü ildən ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan hökuməti və parlamenti erməni millətçilərinin azərbaycanlılara qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətləri bütün miqyası və dəhşətləri ilə dünya dövlətlərinə və beynəlxalq ictimaiyyətə çatdırmaq, bunların soyqırımı siyasəti kimi tanınmasına nail olmaq üçün inadlı və ardıcıl fəaliyyət göstərir. Məqsəd Xocalı faciəsinə beynəlxalq hüquqi-siyasi qiymət verilməsinə, onun təşkilatçılarının, ideoloqlarının və icraçılarının dünya ictimaiyyətinin gözündə ifşasına və cəzalandırılmasına nail olmaqdır. Bu, bir tərəfdən Xocalı müdafiəçilərinin və şəhidlərinin ruhu qarşısında bizim insanlıq və vətəndaşlıq borcumuzdur. Digər tərəfdən isə, insanlığa qarşı yönəlmiş bu cür qəddar cinayətlərin gələcəkdə təkrar olunmaması üçün mühüm şərtdir.*

*Hazırda Azərbaycan rəhbərliyi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində həll olunması üçün ardıcıl fəaliyyət göstərir. Aparıcı dünya dövlətləri, nüfuzlu beynəlxalq təşkilatlar getdikcə daha artıq dərəcədə Azərbaycanın ədalətli mövqeyini qəbul edir, ərazilərimizin işğalı faktını etiraf edir, Ermənistandan Azərbaycan torpaqlarını azad etməyi tələb edirlər. Biz dövlətimizin iqtisadi, siyasi qüdrətinə və qazanılmış təcrübəyə arxalanaraq, problemin ədalətli həlli istiqamətində səylərimizi inadla davam etdirəcəyik.*

*Vətəndaşlarımız, soydaşlarımız unutmamalıdırlar ki, erməni millətçilərin antiazərbaycan təbliğatı getdikcə daha incə, daha mənfur formalarda davam etdirilir, ərazi iddialarını əsaslandırmaqdan ötrü yeni-yeni yalançı tezislər uydururlar. Buna görə də belə ideoloji təxribatlara qarşı ayıq olmalı, onları vaxtında ifşa etməliyik.*

*Hazırda Azərbaycan dövləti, vətəndaşlarımız, xaricdəki soydaşlarımız Xocalı həqiqətlərinin dünyaya çatdırılması, onun əsl soyqırım aktı kimi tanıdılması istiqamətində ardıcıl tədbirlər görürlər. Belə tədbirlər hər il daha əhatəli və peşəkar səviyyədə keçirilməli, xaricdəki soydaşlarımız isə öz fəallığını daha da artırmalıdırlar...".*

Təcavüzkar Ermənistan tərəfindən ərazimizin 20 faizi, 17 min kvadratkilometrdən artıq torpağı (Xocalı, Şuşa, Laçın, Xocavənd, Kəlbəcər, Ağdərə, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonları) işğal olunmuş, 900-dən çox yaşayış məntəqəsi, 600 orta məktəb, 65 peşə məktəbi, 2 yüksək öyrənim ocağı, 798 səhiyyə ocağı, 500 tarixi-memarlıq, 100-dən çox arxeoloji abidə, 12 muzey və 6 rəsm qalereyası, 4 rəsm sərgisi, 927 kitabxana, 85 incəsənət məktəbi, 20 mədəniyyət sarayı, bir neçə dövlət teatrı, 6 min sənaye və kənd təsərrüfatı müəssisəsi, eləcə də digər obyektlər, 44 məbəd və 18 məscid işğalçı ermənilər tərəfindən dağıdılıb. Azərbaycan Respublikasının iqtisadiyyatına 60 milyard dollardan çox ziyan dəyib. Müharibənin nəticəsində 4866 nəfər (55 uşaq, 326 qadın, 410 qoca) itkin düşüb, 783-dən çox vətəndaşımız əsir və girov götürülüb, 20 mindən çox insan qətlə yetirilib, yüz mindən artıq adam yaralanıb və şikəst olub, 1 milyondan artıq soydaşımız qaçqın düşüb.

Ümumiyyətlə, Azərbaycanın Dağlıq Qarabağ ərazisinin və ətraf 7 rayonun Ermənistan tərəfindən işğal edilməsi nəticəsində Azərbaycanın tarix və mədəniyyət abidələri üzrə dəyən zərər 177 milyard ABŞ dolları, əhalinin mülkiyyətinə dəyən zərər isə 55,4 milyard ABŞ dolları təşkil edib.

Bu gün respublika rəhbərliyinin apardığı inadlı və ardıcıl siyasətin nəticəsində Xocalı soyqırımı artıq bir neçə dövlət tərəfindən soyqırım kimi tanınmışdır. Belə ki, 2010-cu ildə ABŞ-ın Massaçusets ştatı, 2011-ci ildə ABŞ-ın Texas və Nyu-Cersi ştatları, 2012-ci ildə Corciya və Men ştatları, 2012-ci ildə Meksika, Pakistan və Kolumbiya dövlətləri, 2013-cü ildə ABŞ-ın Nyu-Meksiko, Arkanzas, Missisipi, Oklahoma, Tennessi, Pensilvaniya, Qərbi Virciniya, Konnektikut və Florida ştatları, 2013-cü ildə Çexiya, Bosniya və Herseqovina, Peru, 2014-cü ildə Honduras və Sudan Respublikası Xocalı soyqırımını rəsmən tanımışdır.

Biz bəşəri cinayət olan Xocalı soyqırımı və Azərbaycana qarşı erməni ekstremistlərinin təcavüzünə, vəhşiliklərinə dünya dövlətlərini, eləcə də bütün beynəlxalq təşkilatları biganə qalmamağa, Xocalı faciəsini insanlığa qarşı soyqırımı aktı kimi tanımağa çağırırıq. Dünya ictimaiyyəti həqiqəti bilməli, faciəyə ədalətli yanaşmalı və bundan sonra erməni ekstremistlərinin məkrli təbliğatına uymamalı, özgə torpaqlarına göz dikən terrorçu dövlətin törətdiyi insan əxlaqına, beynəlxalq hüquqa zidd qanlı qırğını öz adı ilə çağırmalıdır.

**Camal ZEYNALOĞLU,**
**yazıçı-publisist.**